# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN 91 İLLİK YUBILEYİ QARŞISINDA

## Heydər Əliyev irsinə dair informasiya nəşrləri

**A.V. HƏSƏNOVA**
*Bakı Dövlət Universiteti*
*Kitabxanaların kompüterləşdirilməsi elmi-tədqiqat laboratoriyasının laborantı*

*Məqalədə Heydər Əliyevə həsr olunmuş məlumat bazası, biblioqrafik göstərici, biblioqrafik məlumat kitabı və Beynəlxalq elektron kitabxana haqqında məlumat verilmişdir.*

**Açar sözlər:** *Heydər Əliyev, biblioqrafik göstərici, biblioqrafik məlumat kitabı, verilənlər bazası, Beynəlxalq elektron kitabxana*

Heydər Əliyevin kitabxanalara göstərdiyi qayğının nəticəsi olaraq kitabxanaçı mütəxəssislər və kitabxanaçılar Heydər Əliyev şəxsiyyətinə dərin ehtiramını bildirmək üçün Heydər Əliyevin ictimai və siyasi fəaliyyətini araşdırır və Heydər Əliyev irsinin təbliği məqsədilə tədqiqatlar aparır, monoqrafiya, məqalə nəşr etdirir. Bundan əlavə biblioqrafik vəsaitlər-biblioqrafik göstəricilər və biblioqrafik siyahılar hazırlayır. Bu işə nümunə kimi ilk öncə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq – İnformasiya fakültəsinin fəaliyyətini göstərmək olar.

Ulu öndərin irsinin biblioqrafiyası sahəsində ilk addım "Heydər Əliyev: biblioqrafik məlumat kitabı"nın nəşridir. (2, s. 66)

Bakı Dövlət Universitetinin rektoru, millət vəkili, akademik Abel Məhərrəmovun «Heydər Əliyev: biblioqrafik məlumat kitabı»na yazdığı «Azərbaycan intibahının böyük memarı» adlı ön sözdə Heydər Əliyev şəxsiyyəti haqqında obyektiv fikirlər söyləmiş, əsrin təxminən üçdən birini əhatə edən Heydər Əliyev erasını çox yüksək qiymətləndirmişdir. Ön sözdə deyilir:

«Siyasi dövlət xadiminə həsr olunan biblioqrafik informasiya mənbələri həmin şəxsin dünyagörüşünün, çoxcəhətli, ictimai-siyasi, ideoloji fəaliyyətinin cəmiyyətin inkişafında və dövlətçiliyin möhkəmləndirilməsində, beynəlxalq iqtisadi, elmi və mədəni əlaqələrin genişlənməsindəki misilsiz rolunun təbliğində və yayılmasında mühüm vasitədir. Nüfuzlu biblioqrafiyaşünas alimlər biblioqrafik informasiya nəşrlərinin tarixin ayrı-ayrı mərhələlərində tədqiqatçılar və kitab həvəskarları üçün nadir və qiymətli çap əsərlərinə dair «Qırmızı kitab» rolu oynadığını iddia etməkdə yanılmırlar...».

Bakı Dövlət Universiteti Elmi Şurasının qərarı ilə ilk dəfə olaraq «Dünyanın görkəmli dövlət xadimləri» seriyasından olan bu kitab müstəqil Azərbaycan dövlətçiliyinin inkişafında və möhkəmləndirilməsində misilsiz rolu olan Heydər Əliyev irsinin biblioqrafiyalaşdırılması sahəsində atılan ilk





addımdır. 434 səhifəlik Azərbaycan dilində, 446 səhifəlik rus dilində, 455 səhifəlik ingilis dilində çap olunmuş bu sanballı biblioqrafik əsər BDU-nun rektoru, akademik Abel Məhərrəmovun rəhbərliyi və ümumi redaktəsi ilə nəşr edilmişdir. Kitabın tərtibçi-müəllifləri Əməkdar elm xadimi, BDU-nun kitabxanaşünaslıq kafedrasının müdiri, professor Abuzər Xələfov və biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi Solmaz Sadıqovadır.

Biblioqrafik məlumat kitabında materiallar dörd hissə, səkkiz bölmədə qruplaşdırılmış və mənbələr xronoloji ardıcıllıqla düzülmüşdür.

Müstəqillik illərində ulu öndər H.Əliyevin kitabxana işinə diqqət və qayğısının parlaq təzahürünü M.F.Axundov adına Milli Kitabxanaya münasibətində daha aydın görmək olar. Kitabxanaları mədəniyyətimizin mühüm tərkib hissəsi, xalqımız üçün müqəddəs bir yer, bilik və zəka mənbəyi kimi qiymətləndirən H.Əliyevin müstəqil respublikamıza başçılıq etdiyi dövrdə-1995-1997-ci illərdə beş dəfə bu kitabxanaya gəlməsi, onun işi ilə, əməkdaşları ilə tanış olması, kitabxanada keçirilən tədbirlərdə iştirak və çıxış etməsi dediklərimizə parlaq sübutdur.

Ulu öndər Heydər Əliyev M.F.Axundov adına Respublika Kitabxanasına ilk dəfə 1995-ci il iyunun 3-də Azərbaycan Qadınları Milli Komitəsinin, Respublika Kitab Cəmiyyətinin və ABŞ-ın "Stark enterprayz" firmasının təşəbbüsü ilə kitabxanada "Vətənə, dövlətə, xalqa sədaqət andı" miniatür kitabın təqdimat sərgisində iştirak etmək üçün gəlmişdi.

Heydər Əliyev miniatür kitablar sərgisinə gələrkən M.F.Axundov adına Dövlət Kitabxanasına bağışlamaq üçün öz şəxsi kitabxanasından 400 kitab gətirmişdi. (1)

Mərasimlərdə Heydər Əliyevin iştirakı, yeni təqdim olunan kitablar haqqında çıxışı belə tədbirlərin daha geniş yayılmasına, bu işin mühüm mədəni əhəmiyyət kəsb etməsinə, geniş kütləvi hal almasına səbəb olmuşdur.

Milli Kitabxana tərəfindən yaradılan və Heydər Əliyevə həsr olunan informasiya bazası "Mədəniyyətimizin hamisi" adlanır. İnformasiya bazası Heydər Əliyevin 90 illik yubileyi münasibəti ilə yaradılmışdır. (6)

Elektron məlumat bazası "Ana səhifə", "Prezidentin sərəncamı", "Azərbaycan xalqının ümummilli lideri", "Heydər Əliyev milli kitabxanada", "Mədəniyyətimizin inkişafının Heydər Əliyev mərhələsi", "Heydər Əliyev surəti bədii ədəbiyyat və incəsənətdə", "Xatirəsinin əbədiləşdirilməsi", "Fotoqalereya" bölmələrindən ibarətdir.

"Ana səhifə" bölməsinin üzərinə kursoru gətirib siçanın sol düyməsini sıxdıqda məlumat bazasının ilkin təqdimat pəncərəsi açılır. "Prezidentin sərəncamı" bölməsininin üzərində siçanın sol düyməsinin sıxdıqda isə Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinin keçirilməsi bağlı prezident İlham Əliyevin imzaladığı sərəncamın tam mətni açılır.

Digər bölmələr öz növbəsində alt bölmələrə ayrılır ki, ixtiyari bir bölmənin üzərinə kursoru gətirib siçan qurğusunun sol düyməsini sıxdıqda həmin bölmənin alt bölmələrinin açıldığını aydın görmək olar.

Burada "Azərbaycan xalqının ümummilli lideri" başlıqlı bölmənin üzərində siçanın sol düyməsini sıxdıqda bu altbölmələr açılır: "Həyat və fəaliyyəti", "Görkəmli şəxslər Heydər Əliyev haqqında", "Əsərləri", "Müdrik kəlamları", "Haqqında", "Təltiflər" bölmələrində ibarətdir.

"Heydər Əliyev Milli Kitabxanada" adlı bölməsi də öz növbəsində "Nitqlər", "Video görüntülər", "Fotoalbomlar" adlı yarımbölmələrdən ibarətdir.

"Mədəniyyətimizin inkişafının Heydər Əliyev mərhələsi" bölməsi "Heydər Əliyevin mədəniyyətlə bağlı" ("fərman və sərəncamlar", "çıxışları, məruzələri, nitqləri, təbrikləri", "Mətbuatda çıxan mədəniyyət xəbərləri") "Kitablar" ("Heydər Əliyevin mədəniyyətlə bağlı əsərləri" (4 adda ədəbiyyatın biblioqrafik təsviri daxil edilib), "Heydər Əliyevin mədəniyyət sahəsində fəaliyyəti haqqında əsərlər"(13 adda ədəbiyyatın biblioqrafik təsviri daxil edilib"), "Video görüntülər" (Heydər Əliyev haqqında 5 sənədli filmin video versiyası daxil edilib), "Fotoalbom" (Dahi liderin fotolarından ibarət slayd şou") altbölmələrindən ibarətdir.

"Heydər Əliyev surəti bədii ədəbiyyat və incəsənətdə" adlı bölmə "Heydər Əliyevə ithaf olunmuş musiqilər" (16 adda musiqinin biblioqrafik təsviri ilə yanaşı audio versiyası da daxil edilmişdir.), "Heydər Əliyev bədii ədəbiyyatda", "Filmlər" altbölməsindən ibarətdir. "Heydər Əliyev bədii ədəbiyyatda" adlı altbölmə "Poemalar" (9 adda ədəbiyyatın biblioqrafik təsviri daxil edilmişdir), "Povest" (1 adda ədəbiyyatın biblioqrafik təsviri), "Şeirlər" (dövrü mətbuatda çap olunmuş 44 adda, kitablarda çap olunmuş 4 adda ədəbiyyatın biblioqrafik təsviri daxil edilmişdir) adlı yarımbölmələrdən ibarətdir. "Filmlər" adlı altbölmə "Filoqrafiya" və "Videolar" adlı alt bölmədən ibarətdir.

"Xatirəsinin əbədiləşdirilməsi" bölməsi "Rəsmi sənədlər", "Orden, medal və mükafatlar", "Xatirə sikkələri" və s. alt bölmələrdən ibarətdir.

"Fotoalbomlar" bölməsi "Ailə albomu", "Heydər Əliyev Milli kitabxanada", "Heydər Əliyev və mədəniyyətimiz", "Ulu öndər Heydər Əliyev", "Ulu öndərin abidələri", "Heydər Əliyevə ithaf olunmuş kitablar" adlı yarımbölmələrdən ibarətdir. Hər bir bölmə adına müvafiq olaraq Ulu Öndərin siyasi və ictimai fəaliyyətini əks etdirən fotoları təqdim edir.

Heydər Əliyev irsinin təbliği ilə məşğul olan kitabxanalardan biri də Prezident İşlər İdarəsinin prezident kitabxanasıdır. Bu kitabxananın Heydər Əliyev irsinin təbliği məqsədilə "Heydər Əliyev: Elektron toplu" e- layihə tərtib edir.





Bu e-layihə 2007-ci ilin may ayının 8-də istifadəyə verilmişdir. Resursda Heydər Əliyevin həyatı və fəaliyyəti ilə əlaqədar materiallar toplanmışdır. Layihə 7 fəsildən, biblioqrafiyadan və fotoqalereyadan ibarətdir. Layihəyə vaxtaşırı olaraq yeni materiallar əlavə edilir. Resursdakı mətnlər pdf faylı, fotoşəkillər isə html fayl formatındadır. "Heydər Əliyev haqqında elektron kitablar və məqalələr" adlı beşinci fəsildəki bölmələrin tərkibində digər dillərdə verilmiş materiallardan başqa topludakı bütün materiallar Azərbaycan dilindədir. (9)

Birinci fəsil "Ümummilli lider" adlanır. Onun daxilində beş bölmə (Bioqrafiyası, Rəhbərlik illəri, Təltiflər, Seçilmiş fikirləri, Xatirəsinin əbədiləşdirilməsi) verilmişdirş. Zəruri halda onlardan daxilində daha detallı mövzu bölmələri verilmişdir. Məsələn: "Rəhbərlik illəri" altbölməsinin daxilində "Azərbaycan KP MK-nın birinci katibi (1969-1982)", "SSRİ Nazirlər Soveti sədrinin birinci müavini (1982-1987)", "Naxçıvan dövrü (1990-1993)", "Azərbaycan Respublikasının prezidenti (1993-2003)" bölmələri verilmişdir. Fəslin həcmi 125 səhifədir.

İkinci fəsil "Xronologiya. (1923-2003)" adlanır. Burada Heydər Əliyevin həyatı ilə bağlı əsas tarixlər və hadisələrin xronoloji siyahısı verilmişdir. Bu fəslin də daxilində H.Əliyevin fəaliyyətinin tarixi dövrlərinə uyğun olaraq beş xronoloji bölmə verilmişdir. (1923-1969, 1969-1982, 1983-1990, 1990-1993, 1993-2003). Bu bölmələr əsasən onun ayrı – ayrı vəzifələrdə çalışdığı dövrlərə uyğun gəlir. Fəslin həcmi 292 səhifədir.

Üçüncü fəsil "Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları xronoloji ardıcıllıqla həyatının tarixi dövrləri üzrə 13 bölməyə ayrılmışdır. Birinci bölmə - 1969 (noyabr) – 1982 (oktyabr), ikinci bölmə - 1990 (yanvar) – 1993 (may) dövrlərini əhatə edir. Sonrakı dövrə dair materiallar ayrıca birillik bölmələr şəklində (11 bölmə) verilmişdir. Fəslin həcmi 7037 səhifədir.

Dördüncü fəsil "Xarici siyasət fəaliyyətinin xronologiyası. (1993-2003)" adlanır. Burada materiallar Heydər Əliyevin vətənə qayıdışından sonra 1993-2003-cü illər ərzində xarici siyasət sahəsində fəaliyyətinin xronologiyasını əks etdirir. Burada hadisə və faktlar illər üzrə qruplaşdırılmış, onun daxilində isə düz xronoloji adıcıllıqla verilmişdir. Fəslin həcmi 183 səhifədir.

Beşinci fəsil "Müstəqilliyimiz əbədidir. Elektron külliyat" adlanır. Bu fəsil Heydər Əliyevin "Azərbaycan" nəşriyyatı tərəfindən hazırlanmış və 1997- 2012-ci illərdə kağız versiyasında çap edilmiş 42 cildli nəşrin elektron versiyasıdır.

Altıncı fəsil "H. Əliyev haqqında elektron kitablar və məqalələr" adlanır. Fəslin daxilində iki bölmə vardır. Birinci bölmədə Heydər Əliyevə həsr olunmuş əvvəlcə kağız variantında nəşr edilərək sonra rəqəmləşdirilmiş

kitabların elektron versiyaları toplanmışdır. Burada Azərbaycan dilində 25, rus dilində 5 və ingilis dilində 9 adda kitabın tam mətni verilmişdir.

İkinci bölmədə isə Prezident Kitabxanasında məqalələrin elektron kartotekası yaradıldığı vaxtdan (2004) indiyə qədər respublikamızın dövri nəşrlərində Heydər Əliyevə həsr olunmuş və Prezident Kitabxanasında rəqəmləşdirilmiş məqalələrin tam mətni verilmişdir. 2014-cü il aprel ayına olan vəziyyətə görə 240 adda məqalə verilmişdir ki, bunların ümumi həcmi 1058 səhifə təşkil edir.

Yeddinci fəsil "Məşhur adamlar Heydər Əliyev haqqında" adlanır. Fəslin daxilində iki bölmə vardır. Birinci bölmədə görkəmli şəxslərin Heydər Əliyev haqqında onun sağlığında, ikinci bölmədə isə vəfatından sonra söylədikləri fikirlər toplanmışdır. 2014-cü ilin aprel ayına olan vəziyyətə görə bu fəslin ümumi həcmi 27 səhifə təşkil edir.

Səkkizinci fəsil "Biblioqrafiya" adlanır. Fəslin daxilində üç bölmə vardır. Birinci bölmə "Kitablar" adlanır və özü də iki alt bölmədən ibarətdir.

Birinci alt bölmə "Əsərləri" adlanır və burada Heydər Əliyevə məxsus ayrıca olaraq Azərbaycan dilində 96 adda (1974-2011), Rus dilində 16 adda (1972-2011), xarici dillərdə 3 adda, o cümlədən türk dilində 1adda, ingilis dilində 2 adda (1994, 1997) nəşr edilmiş kitabların biblioqrafik siyahısı verilmişdir. Hər bir dil üzrə material ayrıca olaraq düz xronoloji qaydada qruplaşdırılaraq verilmişdir. İllərin daxilində isə təsvirlər əlifba ardıcıllığı ilə düzülmüşdür.

İkinci altbölmə isə "Haqqında" adlanır. 2014-cü ilin aprel ayına olan vəziyyətə görə 456 adda Azərbaycan dilində, 58 adda rus dilində, 37 adda xarici dillərdə nəşr edilmiş kitabların biblioqrafik siyahısı verilmişdir. Hər bir dilin daxilində biblioqrafik təsvirlər əlifba ardıcıllığı ilə düzülmüşdür.

"Biblioqrafiya" fəslinin ikinci bölməsi "Avtoreferatlar" adlanır. Burada Heydər Əliyevin fəaliyyətinin müxtəlif aspektlərinə həsr edilmiş 11 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir.

"Biblioqrafiya" fəslinin üçüncü bölməsi "Məqalələr" adlanır. Burada Prezident kitabxanasında məqalələrin universal elektron kartotekasının yaradıldığı 2004-cü ildən başlayaraq dövrü mətbuatda Heydər Əliyev haqqında dərc edilmiş məqalələr öz əksini tapmışdır. Burada materiallar 2014-cü ildə daxil olmaqla illiklər şəklində 11 altbölmədə toplanmış, onların daxilində Azərbaycan, rus və digər dillər üzrə qruplaşdırılma aparılmışdır. Dillər daxilində isə məqalələrin dərc olunma tarixinin düz xronoloji ardıcıllığı əsas götürülmüşdür. 2014-cü ilin aprel ayına olan vəziyyətə görə 2233 adda material haqqında biblioqrafik informasiya öz əksini tapmışdır. Altıncı fəslin ümumi həcmi 237 səhifədir.





Layihənin son fəsli "Fotoqalereya" adlanır ki, bu Heydər Əliyevin həyatının müxtəlif anlarını əks etdirən fotoşəkillər toplusudur. Burada 50-dən çox fotoşəkil vardır.

2014-cü ilin aprel ayına görə e-layihədə toplanmış materialın ümumi həcmi (elektron kitablar və "Müstəqillimiz əbədidir" külliyatı istisna olmaqla) 8959 səhifə təşkil edir.

Azərbaycan xalqının ümummilli lideri, müasir dövrün görkəmli siyasi xadimi Heydər Əliyevin irsinə həsr edilmiş "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanası 10 may 2004-cü ildə fəaliyyətə başlamışdır. Heydər Əliyev irsini araşdırma mərkəzinin nəznində fəaliyyət göstərən kitabxanada bu böyük siyasət adamının yüzlərlə əsəri - çıxışları, müsahibələri, görüşləri, bəyanatları və məktublarının mətnləri ilə 50 dildə tanış olmaq olar.

Heydər Əliyevin əsərlərinin müxtəlif dillərdə nəşri politoloqlar, iqtisadçılar, jurnalistlər və Azərbaycanın ən yeni tarixi və inkişafı, keçmişi və gələcəyi ilə maraqlanan bütün insanlar üçün faydalıdır. Oxucularımızdan aldığımız məktublar da göstərir ki, kitabxana onları çox maraqlandırır. Mübaliğəsiz demək olar ki, ötən dövr ərzində dünyanın 200-dən artıq ölkəsindən yüz minlərlə oxucu kitabxana ilə tanış olmuşdur. Dünyanın qabaqcıl elm və təhsil mərkəzləri, nüfuzlu dövlət təşkilatları, məşhur media orqanları, kitabxanalar, nəhəng transmilli şirkətlər və başqalarının təmsilçiləri kitabxananın daimi oxucularındandır.

"Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanası nəşriyyat fəaliyyəti ilə də məşğuldur. Müxtəlif xarici dillərdə nəşr olunmuş kitabların bəziləri ilə saytda tanış olmaq olar.

"Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanası gündəlik olaraq yeniləşir, zənginləşir.

2014-cü ilin aprel ayına olan vəziyyətə görə beynəlxalq elektron kitabxananın saytının ilkin təqdimat pəncərəsinin sol tərəfində "Menyu" pəncərə yerləşdirilmişdir ki, bu pəncərə "Böyük liderin 90 anı", "Oxuculara müraciət", "Tərcümeyi-hal", "Əsərləri", "Məlumat-soraq materialları", "Tarixi arayışlar", "Ümumi tarixi arayışlar", "Dünya mətbuatı Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin səfərləri haqqında", "Məşhurlar Heydər Əliyev haqqında", "Əlavə sənədlər", "Oçerklər", "Video-blok", "Xəritə və qrafiklər", "Əlamətdar tarixlər","Kitabxananın xəritəsi" bölmələrdən ibarətdir.

Ulu öndərin belə bir fikri var *"Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik."* Ona görə də biz irsimizi öyrənməli və öyrətməliyik. O cümlədən də Azərbaycan tarixində, mədəniyyətində, incəsənətində cığır açmış Heydər Əliyev irsini.

## ƏDƏBİYYAT:

1. *Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- B.: Azərnəşr, 2006, 312 s.*

2. *Sadıqova S. Ümummilli lider Heydər Əliyevə həsr olunmuş biblioqrafik informasiya nəşrləri // Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri, təcrübi jurnal. - 2011. - №1. - S. 66-77.*

3. *Sadıqova S. Sosial-siyasi elmlərin biblioqrafik informasiya təminatında "Heydər Əliyev və Azərbaycan elmi" adlı biblioqrafik göstərici mühüm mənbədir // Kitabxanaşünaslıq və biblioqrafiya. - 2010. - №2.- S.138-143.*

4. *Sadıqova S. Tarix elminə həsr olunmuş mövzu xarakterli biblioqrafik informasiya mənbələri // Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri. - B., 2010. - №2. - S. 413-420.*

5. *Hacıyeva Q. Azərbaycan biblioqrafiyasının inkişafında yeni mərhələ // Kitabxanaşünaslıq və biblioqrafiya.- 2012.- № 2.- S. 54-60*

6. *anl.az*
7. *csl- az. com*
8. *lib.aliyev-heritage.org*
9. *preslib.az*

## Before 91 years great leader: informational publications on the heydar aliyev 's heritage

**A. V. Hasanova**

***Summary***

*İn article was informed about bibliography, referens book, database, İnternational electronic library which dedicated to Heydar Aliyev.*

***Key words:*** *Heydar Aliyev, bibliography, referens book, database, İnternational electronic library*

## Перед 91-летию великого лидера: информационная публикация о наследии гейдара алиева

**А.В. Гасанова**

***Резюме***

*В статье был информирован про библиографии, справочника, базы данных, Международной электронной библиотеки которая посвящена Гейдара Алиеву.*

***Ключевые слова:*** *Гейдар Алиев , библиография, библиографический справочник, база данных, Международная электронная библиотека*